Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
“ İctimai və dövlət maraqlarının müdafiəsi”

# Sağlam cəmiyyət sağlam ailə əsasında formalaşır

## Nikah öncəsi tibbi müayinələr haqqında nə bilirik?

**Qurulan hər bir ailə yalnız yaxın çevrə qarşısında deyil, bütövlükdə cəmiyyət qarşısında böyük məsuliyyət daşıyır. İki gənc ailə həyatı qurarkən təkcə özləri barədə deyil, dünyaya gətirdikləri övladları barədə də düşünməlidirlər. Belə ki, gələcək valideynlərin sağlamlığı həm də onların dünyaya gətirəcəkləri körpənin sağlamlığının təminatı deməkdir. Əbəs yerə deməyiblər ki, sağlam uşaq sağlam ailədə böyüyür.**

Heç şübhəsiz ki, səhhətimizlə bağlı hər hansı bir problemi öncədən bilib qarşısını almaq onu həll etməkdən daha asandır. Əfsuslar olsun ki, bəzən insanlar öz sağlamlıqları barədə yalnız dünyaya xəstə uşaq gətirdikdə və ya ümumiyyətlə, heç zaman ana-ata ola bilməyəcəklərini öyrəndikdən sonra düşünməyə başlayırlar. Halbuki bu xoşagəlməz hadisənin qarşısını əvvəlcədən almaq mümkündür.

Bu baxımdan sağlam ailənin formalaşması üçün gənclərin ailə həyatı qurmazdan əvvəl tibbi müayinədən keçmələri dünyaya göz açan uşaqların xəstəliklərlə doğulmasının qarşısının alınması və ailələrin şən, firavan həyat sürmələri üçün atılan ilk addım kimi dəyərləndirilə bilər. Sağlam doğulmaq hər bir insanın haqqıdır. Əgər valideynlər bilə-bilə dünyaya xəstə uşaq gətirirlərsə, bu, əslində, yeni doğulan uşağın sağlamlıq hüququnu kobud şəkildə pozmaqdır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, dövlətimiz talassemiya və hemofiliyadan əziyyət çəkən uşaqların müalicəsi üçün hər il təxminən 30 milyon manata yaxın vəsait ayırır. Son nəticə isə acınacaqlıdır. Müalicəyə baxmayaraq, bu insanlar əksər hallarda cəmi 20-25 yaşına kimi yaşaya bilirlər. Valideyn də bu müddət ərzində xəstə övladı ilə birlikdə fiziki, mənəvi və maddi əziyyətlər çəkir. Əgər körpələrimizin bu yaşda dünyadan köçmələrinin, ana və ataların gözü yaşlı qalmalarının qarşısını almaq mümkündürsə, niyə də bunu etməyək? Nikaha daxil olmazdan öncə tibbi müayinədən keçmək məgər bu qədərmi çətindir? Şəxsən mən həmin müayinədən yayınanları savadsızlıqda deyil, məsuliyyətsizlikdə və mentalitetdən irəli gələn zərərli vərdişlərdən yaxa qurtara bilməməkdə ittiham edərdim. Şükürlər olsun ki, elm və texnikanın yüksək səviyyədə inkişaf etdiyi, gəclərimizin dünyagörüşlərinin genişləndiyi müasir dövrdə artıq hamı dünyaya sağlam uşaq gətirməyin vacibliyini anlayır. Bir çoxumuz hətta xəstə gen daşıyıcıları olan gənclərin də vaxtında tibbi müdaxilənin köməyi ilə sağlam uşaq dünyaya gətirdiklərindən xəbərdarıq. Bütün bunları bildiyimiz halda nikahdan öncə tibbi müayinədən keçmək məsələsi cəmiyyətdə hələdə birmənalı qarşılanmır. Kimisi tibbi müayinədən keçməyi özünə təhqir hesab edir, kimisi gənclərin sevgisinə qarşı qanun kimi dəyərləndirir. ”Qohum-əqrəba nə deyər”, ”eldən-obadan ayıbdır” kimi düşüncə tərzi olan insanlar da çoxluq təşkil edir. Kimisi də sadəcə məsuliyyətsizlik edib sonradan qarşılaşa biləcəyi acı nəticələri düşünmədən müayinədən yayınır.

Məsələnin ciddiliyindən irəli gələrək, nikahdan əvvəl tibbi müayinənin icbari qaydada tətbiq olunması haqqında qanun layihəsi Milli Məclisdə təxminən 6-7 il ərzində əlaqədar nazirliklərin, QHT-lərin və mətbuat orqanlarının iştirakı ilə dəfələrlə, müxtəlif rakurslardan müzakirə olundu, dünya təcrübəsi öyrənildi. İstər Milli Məclisdə, istərsə də cəmiyyətdə layihənin əleyhinə olanlar çox idi. Bəziləri bunu insan haqlarının pozulması kimi qəbul edirdilər. Lakin onlar unudurdular ki, hər bir vətəndaş sağlam cəmiyyətin formalaşması üçün məsuliyyət daşıyır. Nəhayət dövlət başçısı özü qanunvericilik təşəbbüsü ilə çıxış etdi, layihə onun imzası ilə Milli Məclisə göndərildi və Ailə Məcəlləsinə dəyişikliklər edilməsi barədə qanunu təsdiqləndi.

Dəyişikliyə əsasən, nikah müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlana bilər. Nikaha daxil olmaq istəyən şəxslər siyahısı



müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəliklər üzrə tibbi müayinədən keçməlidirlər. Nikaha daxil olmaq istəyən şəxslərə tibbi müayinəsi, habelə həmin şəxslərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların müraciəti ilə yaşayış yeri üzrə dövlət və (və ya) bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin nəticələri ilə yanaşı, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış verilir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış tibbi müayinədən keçmə faktını və tibbi məsləhətin verildiyini təsdiq edir və həmin şəxslərin tibbi müayinəsinin nəticələrini əks etdirmir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir. Nikaha daxil olmaq barədə ərizəyə nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə olunur.

Sözügedən qanun bu il yanvarın 1-dən qüvvəyə mindi. İndi hər bir nikaha girmək istəyən cütlük ərizə ilə VVAQ orqanlarına müraciət edərkən, yaşadıqları yerdə tibbi müayinədən keçmək barədə arayışı da təqdim etməlidirlər. Belə bir arayışın olmadığı halda VVAQ orqanları ərizəni qəbul etdikdən sonra onlara tibbi müayinə üçün müddət verir. Gənclər qeydiyyatda olduqları ərazinin poliklinikasında dövlət hesabına müvafiq tibbi müayinələrdən keçir və müayinənin nəticələri həmin poliklinikanın səlahiyyətli həkimi tərəfindən yalnız onların özünə elan olunur. VVAQ orqanlarına diaqnozun göstərilmədiyi, yalnız icbari tibbi müayinədən keçmək barədə arayış veriləcək. Həmin şəxslər xəstə və ya daşıyıcı olmaları barədə məlumatlandırıldıqdan sonra evlənmək barədə özləri qərar verirlər. Bu zaman seçim hüququ onların özünə aiddir. Lakin tibbi müayinədən keçmək barədə sənədi olmayan cütlüklərin nikahı VVAQ tərəfindən qeydə alınmır, onların rəsmi nikahı olmur.

Nikaha girməyə hazırlaşan gənclərin hansı müayinələrdən keçdiklərinə gəlincə, bu sualla Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liliya Bayramovaya müraciət etdik.

””Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçməli olduğu xəstəliklərin Siyahısı”na və ”Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə Qaydası”na əsasən nikaha daxil olmaq istəyən şəxslər hemoqlobinopatiyalar, böyük beta-talassemiya, aralıq beta-talassemiya, drepanotalassemiya, oraqvari hüceyrəli anemiya, İİV/QİÇS və sifilis üzrə tibbi müayinədən keçməlidirlər.

Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydası sağlam ailənin formalaşması üçün şəraitin yaradılması, irsi xəstəliklə və anadangəlmə inkişaf qüsuru ilə uşaqların doğulmasının qarşısının alınması məqsədi ilə Ailə Məcəlləsinə əsasən hazırlanıb və nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçməsi qaydasını müəyyən edir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş xəstəliklərin siyahısı üzrə aparılan klinik və laborator müayinələrdən, habelə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlərin verilməsindən ibarətdir”, - deyə o bildirdi.

Liliya Bayramovanın sözlərinə görə, bu qayda nikaha daxil olmaq istəyən Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və əcnəbilərə də şamil edilir. Tibbi müayinə və məsləhətlər nikaha daxil olmaq istəyən şəxslərin və ya onlardan birinin yaşayış yeri üzrə Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş dövlət və (və ya) bələdiyyə tibb müəssisəsində, tərəflərdən biri azadlıqdan məhrum edilmiş şəxs olduqda isə həmin şəxsin olduğu cəzaçəkmə müəssisəsinin tibb xidməti tərəfindən həyata keçirilir.

Tibbi müayinənin keçirilməsi və məsləhətlərin verilməsi pulsuz aparılır. Tibbi müayinənin keçirilməsinə, habelə məsləhətlərin verilməsinə və qeydiyyatın aparılmasına nəzarət tibb müəssisəsinin rəhbəri tərəfindən həyata keçirilir. Nikaha daxil olmaq istəyən şəxslərin hər biri tibbi müayinədən keçirilir. Tibbi müayinədən sonra nikaha daxil olmaq istəyən şəxslərə müayinənin nəticəsi barədə ayrı-ayrılıqda məlumat verilir və buna uyğun olaraq onlara tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlər verilir.

Liliya Bayramova tibbi müayinənin nəticələri nikaha daxil olmaq istəyən şəxslərə yazılı formada təqdim edilməklə rəsmiləşdirildiyini söyləyir: ”Nikaha daxil olmaq istəyən şəxslərə Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrinə, Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələrinə, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəliklərinə təqdim edilməsi üçün tibbi müayinədən keçdiklərini təsdiq edən arayış verilir. Arayışda müayinənin nəticələri əks olunmur. Arayış tibb müəssisəsinin rəhbəri və tibbi müayinənin aparılmasına məsul həkim tərəfindən imzalanır və müəssisənin möhürü ilə təsdiq edilir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir. Nikaha daxil olmaq istəyən tərəf tibbi müayinənin nəticəsi barədə digər tərəfi məlumatlandırır və yazılı razılıqlarına əsasən cütlüyə həkim məsləhəti verilir.

Tibbi arayışın verilməsi müddəti nikaha daxil olmaq istəyən şəxslərin tibb müəssisəsinə müraciət etdiyi gündən sonra 2-3 həftədən çox olmamalıdır. Tibbi arayışın etibarlılıq müddəti 1 aydır”.

Bu qanunun tətbiqinin cəmiyyətə verəcəyi töhfələrə gəlincə, Liliya Bayramova olduqca mühüm məqamlara toxundu: ”Bəzən uşaq vaxtından anada ürək qüsuru olur və bu barədə məlumatı olmur. Hamiləliyin son aylarında bu problem aşkar olduqda xəstə məsuliyyəti dərk etmir bunun nəticəsi isə faciəvi olur. Yaxud elə nevroloji, psixi xəstəliklər var ki, gizli gedir, lakin hamiləlik dövründə kəskinləşir. Bu isə həm ana, həm də uşaq üçün təhlükəlidir. Ona görə də hesab edirəm ki, bu qanunun qəbul edilməsi təkcə Səhiyyə Nazirliyinin qəbul etdiyi o siyahıda olan sosial xarakterli xəstəliklərin deyil, digər xəstəliklərin də müayinə olunmasına, aşkarlanmasına gətirib çıxardacaq. Əminəm ki, bu qanun cəmiyyətimiz tərəfindən anlayış və hörmətlə qarşılanacaq və yaxın 10-15 il ərzində biz Azərbaycanda tamamilə sağlam cəmiyyət görəcəyik”.

**İskəndər Quliyev**

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*